*Qırğızıstan Baş prokurorunun müavini:*

# Azərbaycan korrupsiyaya qarşı mübarizədə böyük uğurlar qazanıb




**Mən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO) normalarının implementasiyası məsələsində Azərbaycanın müsbət təcrübəsini öyrənmək məqsədilə ölkənizə səfər etmişəm. Hazırda Qırğız Respublikası GRECO kimi nüfuzlu beynəlxalq təşkilata qoşulmağın mümkünlüyünü öyrənir. Bu gün Azərbaycanın mərkəzi dövlət hakimiyyəti orqanlarının nümayəndələri ilə çoxlu səmərəli görüşlərimiz oldu. Məsələn, biz Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə tanış olduq. Hesab edirik ki, Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizədə böyük uğurlar qazanıb. ümid edirik ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində qazanılmış təcrübə bizə də kömək edəcək.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri ölkəmizdə səfərdə olan Qırğız Respublikasının Baş prokurorunun müavini Cəmilə Camanbayeva noyabrın 5-də jurnalistlərə müsahibəsində söyləyib.

C.Camanbayeva “ASAN xidmət” mərkəzinin fəaliyyəti barədə fikirlərini bölüşərək deyib: “ASAN xidmət” mərkəzi barədə təəssüratlarım çox müsbətdir. Biz görürük ki, Azərbaycan Respublikasının vətəndaşları “ASAN xidmət” mərkəzində göstərilən bütün dövlət xidmətlərindən operativ, şəffaf şəkildə istifadə edə bilirlər. Ümid edirik ki, gələcəkdə Qırğızıstanda da bu istiqamətdə irəliləyiş olacaq və ölkəmiz əhaliyə dövlət xidmətləri göstərilməsində analoji səviyyəyə çatacaq”.

**AZƏRTAC**

**Respublika.- 2019.- 6 noyabr.- S.4.**